**Bir** yumruq, ürək, can



# Türkiyənin səhiyyə naziri zəlzələ bölgəsindəki azərbaycanlı həkimlərlə görüşüb





**"Qardaşımız, can dostumuz Azərbaycan dəstəyi və acımıza ortaq olması ilə yanımızdadır".**

AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin səhiyyə naziri Fahrettin Koca tviter səhifəsində yazıb.

"Kahramanmaraşdakı səhra xəstəxanalarından biri Azərbaycan tərəfindən quruldu. Həkimlərimiz, səhiyyə işçilərimiz qədər can yandıran heyətlərinə ayrıca təşəkkür edirik", - deyə o bildirib.

Qeyd edək ki, Fahrettin Koca zəlzələ bölgəsində azərbaycanlı həkimlərlə görüşündən video da paylaşıb.

Azərbaycan.- 2023.- 26 fevral.- S.4.